**Fərəh Şahbaz qısı Cəfərova**

**UOT: 331.5; JEL: J21.**

# Azərbaycan Respublikasının yeni məşğulluq strategiyası və əhalinin işsizlik səviyyəsinin azaldılması istiqamətləri

***Xülasə***

*Məqalədə Azərbaycan Respublikasının məşğulluq strategiyası kontekstində rəsmi statistik məlumatların təhlil edilib ümumiləşdirilməsi əsasında son 15 il ərzində (2003-2018-ci illər) respublikada əhalinin işsizlik səviyyəsində baş vermiş dəyişikliklər və ona təsir edən amillər aşkara çıxarılıb qiymətləndirilmiş və işsizlik səviyyəsinin azaldılmasına dair bəzi təklif və tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *əhali, məşğulluq, işsizlik, dövlət və qeyri-dövlət bölməsi, iqtisadi fəal və iqtisadi qeyri-fəal əhali, məşğulluq strategiyası.*

## Giriş

Müasir dövrdə bəşəriyyəti narahat edən ən qlobal və həlli çətin olan problemlər arasında işsizlik ön yerlərdən birini tutur. İndiki dünyada gedən qlobal iqtisadi böhran şəraitində bu özünü daha qabarıq şəkildə büruzə verir və bir çox ölkələrin hökumət və dövlət başçılarını çətin vəziyyətə salmışdır. İşsizlik probleminin ölkəmizdə müvəffəqiyyətlə həll edilməsinə baxmayaraq, onun həlli daimi proses kimi diqqət mərkəzindədir və aktual olaraq qalır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının "29" iyul 2018-ci il tarixli sərəncamı ilə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının yeni qanunu və "30" oktyabr 2018-ci il tarixli fərmanı ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası" təsdiq edilmişdir. Bu mühüm dövlət sənədlərində ölkəmizdə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizlik səviyyəsinin daha da aşağı salınması ilə bağlı bir sıra mühüm vəzifələr qarşıya qoyulmuşdur. Bu vəzifələrdən irəli gələn təklif və tövsiyələrin işlənib hazırlanması əmək problemləri ilə məşğul olan elm adamları və mütəxəssislərin diqqətindən yayınmamalı və bu sahədə tədqiqatlarını dərinləşdirməlidirlər.



**Azərbaycan Respublikasında işsizlik səviyyəsində baş vermiş dəyişikliklərin dinamikası**

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları ölkədə mövcud olan əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, iqtisadi fəal əhalinin məşğulluq səviyyəsinin azaldılması məqsədilə hələ "26" oktyabr 2005-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının Məşğulluq strategiyası (2006-2015-ci illər)-nı təsdiq etmişdir. Bu sərəncamın icrası nəticəsində 2005-2018-ci illərdə Azərbaycan Respublikasında iqtisadiyyatda məşğul olan əhalinin sayı 817 min nəfər və ya 20,1 faiz artaraq 4062,3 min nəfərdən 4879,3 min nəfərə gəlib çatmış, işsiz əhalinin sayı isə 64,0 min nəfər və ya 20,0 faiz azalaraq 317,8 min nəfərdən 253,8 min nəfərə düşmüşdür. Başqa sözlə desək müqayisə edilən dövrdə respublikamızda mövcud olmuş iqtisadi fəal əhalinin məşğulluq səviyyəsi 2,4 faiz bənd azalaraq 92,7 faizdən 95,1 faizə qalxmış, işsizlik səviyyəsi isə 2,4 faiz bənd azalaraq 7,3 faizdən 4,9 faizə düşmüşdür (4, s. 85). Müqayisə üçün qeyd edək ki, hazırda Rusiyada əhalinin işsizlik səviyyəsi 5,2 faiz; Avstriyada – 5,5 faiz, Belarusda – 5,6 faiz; Belçikada – 7,1 faiz; Danimarkada – 5,7 faiz; İtaliyada – 11,2 faiz; Qırğızıstanda – 6,9 faiz; Litvada – 7,1 faiz; Kanadada – 6,3 faiz; Özbəkistanda – 5,8 faiz; Ukraynada – 9,5 faiz; Finlandiyada – 8,6 faiz; Fransada – 9,4 faiz; İsveçdə - 6,7 faiz; Ermənistanda isə 17,8 faizdir (4, s.703).

©Fərəh Şahbaz qısı Cəfərova AMEA İqtisadiyyat İnstitutu, b.e.i.
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycan Respublikasında əhalinin məşğulluq səviyyəsinin belə yüksək, işsizlik səviyyəsinin isə xeyli aşağı olması təsadüfi olmayıb müstəqillik illərində, xüsusilə son 15 il ərzində ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində baş vermiş yeni keyfiyyət dəyişiklikləri ilə sıx bağlıdır. Ölkə başçısı İlham Əliyev cənabları hələ 2003-cü ildə prezident seçkilərinə qatılarkən seçiciləri ilə keçirdiyi görüşlərindəki çıxışlarında demişdir ki, Azərbaycan üçün ən böyük problem işsizlikdir. O, qeyd etmişdir ki, əgər prezident seçilərsə 5 il ərzində respublikada 600 min yeni iş yerinin açılmasına çalışacaqdır. 2003-cü ilin oktyabr ayında ölkə başçısı seçildikdən dərhal sonra, onun həmin ilin noyabr ayının 24-də imzaladığı ilk fərmanı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında", ikinci fərmanı isə 2004-cü ilin fevral ayının 11-də imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" oldu. Həmin dövlət sənədlərində və sonrakı illərdə regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair qəbul edilmiş daha üç Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi nəticəmizdə ölkəmiz sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsinə keçmiş, qeyri-neft sektorunun davamlı inkişafına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, regionlarda kommunal, xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsinə təkan vermiş, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, işsizlik səviyyəsinin və yoxsulluğun azaldılmasına səbəb olmuşdur. Bu Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ölkədə Ümumi Daxili Məhsulun həcmi 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə isə 1,7 dəfə artmışdır (2).

Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsində 1994-cü ildə imzalanmış və Azərbaycan Respublikasının tarixində yeni mərhələnin əsasını təşkil edən "Əsrin müqaviləsi" həlledici rol oynamışdır. Bu müqavilənin icrası xarici investisiyaların ölkəmizə cəlb edilməsinə güclü təkan vermişdir. Uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində ilbəil artan neft və qaz gəlirlərinin qeyri-neft sektoruna nəticəsində ölkəmizdə iqtisadiyyatın tarazlı inkişafına nail olunmuşdur. Bu isə öz növbəsində əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə və işsizliyin azalmasına səbəb olmuşdur. 2003-cü ildən keçən dövr ərzində ölkəmizdə iqtisadiyyata yönəldilmiş investisiyaların məbləği 6,1 dəfə artaraq 4,25 milyard manatdan 25,88 milyard manata, büdcənin gəlirləri 18,8 dəfə artaraq 1,2 milyard manatdan 22,5 milyard manata, əhalinin gəlirləri 9,4 dəfə artaraq 5,7 milyard manatdan 53,7 milyard manata, adambaşına gəlir 7,8 dəfə artaraq 700,7 manatdan 5467 manata, ÜDM-nu həcmi 3,3 dəfə artaraq 7,15 milyard manatdan 79,8 milyard manata, adambaşına düşən ÜDM-un məbləği 9,3 dəfə artaraq 872,7 manatdan 8126,2 manata, qeyri-neft sektorunda ÜDM həcmi 2,8 dəfə (real artım) 4,5 milyard manatdan 46,9 milyard manata, xarici ticarətin həcmi 6,1 dəfə artaraq 5,22 milyard ABŞ dollarından 31,8 milyard ABŞ dollarına, xarici valyuta şəklində ehtiyatların həcmi 28,1 dəfə artaraq 1,6 milyard ABŞ dollarından 44,9 milyard ABŞ dollarına, əhalinin orta aylıq əmək haqqı 7,0 dəfə artaraq 77,4 manatdan 544,6 manata, yoxsulluğun səviyyəsi 8,8 dəfə azalaraq 44,7 faizdən 5,1 faizə, işsizliyin səviyyəsi isə 1,9 dəfə azalaraq 9,2 faizdən 4,9 faizə düşmüşdür (1).

Əldə edilmiş bu nailiyyətlərin nəticəsində 2003-2018-ci illərdə ölkəmizdə 2197,3 min, o cümlədən 2003 (IV rüb) 2008-ci illərdə 766,3 min; 2009-2013-cü illərdə 470,9 min; 2013-2017-ci illərdə 721,2 min, 2018-ci ildə isə 239,0 min yeni iş yerləri açılmışdır (4, s.680). 2003-2018-ci illərdə yeni açılmış iş yerlərinin 1563,6 minini və ya 71,2 faizini daimi iş yerləri təşkil etmişdir. Yeni açılmış həmin iş yerlərinin 9,7 faizi (213,6 mini) yeni yaradılmış müəssisə və təşkilatlarda; 16,7 faizi (367,6 mini) mövcud müəssisə və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təşkilatlarda; 1,2 faizi (26,7 mini) fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda; 43,5 faizi (955,7 mini) fərdi sahibkarlıq subyektlərində yaradılmış; 28,8 faizi isə digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, azadlıq işləri və s.) yaradılmış işlərinin payına düşmüşdür (4, s.680). 2003-2018-ci illərdə ölkəmizdə yeni açılmış iş yerlərinin ərazi quruluşunu isə aşağıdakı 1-ci cədvəlin məlumatlarından görmək olar. Həmin cədvəlin məlumatlarından aydın olur ki, 2003-2018-ci illəri əhatə edən son 15 il ərzində Respublikada açılmış yeni iş yerlərinin 24,8 faizi, o cümlədən daimi iş yerlərinin 39,5 faizi Bakı şəhərinin, müvafiq surətdə 75,2 və 65,5 faizi isə regionların payına düşmüşdür. Müqayisə edilən dövrdə regionlar arasında ən çox yeni iş yerləri Aran (25,1 faiz), Gəncə-Qazax (12,3 faiz); Lənkəran (8,3 faiz) və Abşeron (6,3 faiz) iqtisadi rayonlarında yaradılmışdır. Bu göstəriciyə görə daimi iş yerləri üzrə ilk yerlərdə Yuxarı-Qarabağ (21,9 faiz); Aran (18,6 faiz); Gəncə-Qazax (10,5 faiz), Abşeron (7,2 faiz) və Lənkəran (7,1 faiz) iqtisadi rayonları qərarlaşmışdır. Qeyd edilən dövrdə yeni açılmış daimi iş yerlərinin ölkə üzrə 71,1 faizi, o cümlədən Bakı şəhərində 98,7; Kəlbəcər-Laçında 88,3; Abşeronda-81,8; Şəki-Zaqatalada-78,6; Naxçıvan MR-da77,4; Quba-Xaçmazda-65,2; Gəncə-Qzaxda-60,9; Lənkəranda-60,5; Dağlıq Şirvanda-58,1; Aranda-52,6; Yuxarı Qarabağda isə 46,4 faizi daimi iş yerlərinin payına düşmüşdür.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasında yeni açılmış iş yerlərinin ərazi quruluşu (2003-2018-ci illər)**

| İqtisadi rayonlar | 2003-2018-ci illərdə yeni açılmış iş yerlərinin sayı (min vahidlə) | Yekuna nisbətən (%) | o cümlədən | | Cəmi açılmış iş yerləri arasında daimi iş yerləri (%) |
|---|---|---|---|---|---|
| | | | Yeni açılmış daim: iş yerlərinin sayı (min vahidlə) | Yekuna nisbətən (%) | |
| **Respublika üzrə cəmi** | 2197,3 | 100,0 | 1563,1 | 100,0 | 71,1 |
| **Bakı şəhəri** | 546,1 | 24,8 | 539,1 | 34,5 | 98,7 |
| **Abşeron** | 137,9 | 6,3 | 112,8 | 7,2 | 81,8 |
| **Gəncə-Qazax** | 270,1 | 12,3 | 164,4 | 10,5 | 60,9 |
| **Şəki-Zaqatala** | 104,1 | 4,7 | 81,8 | 5,2 | 78,6 |
| **Lənkəran** | 183,4 | 8,3 | 111,0 | 7,1 | 60,5 |
| **Quba-Xaçmaz** | 105,0 | 4,8 | 68,5 | 4,4 | 65,2 |
| **Aran** | 551,6 | 25,1 | 290,1 | 18,6 | 52,6 |
| **Yuxarı Qarabağ** | 73,9 | 3,4 | 34,3 | 21,9 | 46,4 |
| **Kəlbəcər-Laçın** | 14,5 | 0,6 | 12,8 | 0,8 | 88,3 |
| **Dağlıq Şirvan** | 71,6 | 3,3 | 41,6 | 2,7 | 58,1 |
| **Naxçıvan MR** | 74,3 | 3,4 | 57,5 | 3,7 | 77,4 |
| **Nazirliklər, komitələr, şirkətlər və s.** | 64,8 | 8,0 | 49,6 | 3,2 | 76,5 |

Bu fərqlər regionlar üzrə olduğu kimi, ayrı-ayrı iqtisadi fəaliyyət növlərində də özünü göstərməkdədir. Aşağıdakı 2-ci cədvəldə qeyd edilən dövrdə respublikada yeni açılmış daimi iş yerlərinin müxtəlif iqtisadi fəaliyyət növləri arasında bölünməsi vəziyyəti öz əksini tapmışdır. 2-ci cədvəlin məlumatlarından görünür ki, son 15 il 2003-2018-ci illər ərzində Azərbaycan Respublikasında yeni açılmış daimi iş yerlərinin 61,2 faizi sahibkarlıq subyektlərində; 7,2 faizi sənayedə; 6,7 faizi tikintidə, 6,0 faizi ticarət, nəqliyyat vasitələrinin təmirində; 4,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda; 2,3 faiz dövlət idarəetməsi və sosial müdafiə; sosial təminatda; 1,9 faizi təhsil, peşə, elm və texniki fəaliyyətdə; əhaliyə səhiyyə və sosial xidmətlər göstərilməsində; 10,1 faizi isə bütün başqa



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

iqtisadi fəaliyyət növləri sahəsində yaradılmışdır. Bütünlükdə götürüldükdə isə 2003-2018-ci illərdəkindən fərqli olaraq 2018-ci ildə yeni açılmış daimi iş yerlərinin 59,2 faizi (müqayisə edilən dövrə nisbətən 2,0 faiz az) sahibkarlıq subyektlərində; 9,2 faizi sənaye sahəsində, o cümlədən 5,1 faizi emal sənayesi sahəsində (müqayisə edilən dövrdəkindən müvafiq surətdə 2,6 və 3,2 faiz çox); 7,5 faizi tikintidə (müqayisə edilən vaxtdakından 0,8 faiz çox); 7,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində (müqayisə edilən vaxtda olduğundan 1,5 faiz çox); 4,1 faizi təhsil, peşə, elm və texniki fəaliyyət və əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində (müqayisə edilən vaxtda olduğundan 2,2 faiz çox); 12,5 faizi isə bütün başqa iqtisadi fəaliyyət növlərinin (müqayisə edilən dövrdə olduğundan 2,4 faiz çox) yaradılmışdır.

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında yeni açılmış daimi iş yerlərinin iqtisadi fəaliyyət növləri arasında bölünməsi (2003-2018-ci illər)**

| İqtisadi fəaliyyət növləri | Yeni açılmış iş yerlərinin sayı (min vahid) | Yekuna nisbətən (%) | o cümlədən 2018-ci ildə açılmış iş yerlərinin sayı | |
|---|---|---|---|---|
| | | | vahid | (%) |
| Respublika üzrə cəmi | 1563,6 | 100 | 127428 | 100,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 72,7 | 4,6 | 1671 | 1,3 |
| Sənaye | 112,0 | 7,2 | 12469 | 9,8 |
| O cüm: emal sənayesi | 37,5 | 2,4 | 7140 | 5,6 |
| Tikinti | 104,9 | 6,7 | 9516 | 7,5 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 93,1 | 6,0 | 9567 | 7,5 |
| Nəqliyyat və anbar təsərrüfatı | 12,5 | 0,8 | 1143 | 0,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 15,3 | 1,0 | 1323 | 1,0 |
| İnformasiya və rabitə | 7,9 | 0,5 | 708 | 0,6 |
| Maliyyə və sığorta fəaliyyəti | 22,7 | 1,5 | 622 | 0,5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 17,8 | 1,1 | 1406 | 1,1 |
| Peşə, elm və texniki fəaliyyət | 16,0 | 1,0 | 2760 | 2,2 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 12,7 | 0,8 | 1429 | 1,1 |
| Dövlət idarəetməsi və sosial müdafiə: sosial təminat | 36,1 | 2,3 | 4854 | 3,8 |
| Təhsil | 6,8 | 0,4 | 1565 | 1,2 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 8,3 | 0,5 | 929 | 0,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 3,9 | 0,2 | 457 | 0,4 |
| Digər sahələrdə xidmətlər | 15,6 | 1,0 | 1520 | 1,2 |
| Fərdi sahibkarlıq subyektlərində | 955,7 | 61,2 | 75489 | 59,2 |
| Nazirlik, komitə, şirkət, səhmdar cəmiyyətləri və digər mərkəzi təşkilatlarda | 49,6 | 3,2 | - | - |

Bütün bu dəyişikliklərin nəticəsində ölkə iqtisadiyyatında məşğul olanların sayı 1132,3 min nəfər və ya 30,2 faiz artaraq 2003-cü ildəki 3747,0 min nəfərdən 2018-ci ildə 4875,3 min nəfərə gəlib çatmış; işsiz əhalinin sayı isə 147,1 min nəfər və ya 36,7 faiz azalaraq 400,9 min nəfərdən 253,8 min nəfərə düşmüşdür. Bu dəyişikliklər kişi və qadın cinsindən olan əhali üzrə də xeyli fərqli olmuşdur. Müqayisə edilən dövrdə iqtisadiyyatda məşğul olan kişilərin sayı 569,7 min nəfər və ya 29,1 faiz artaraq 1959,7 min nəfərdən 2529,4 min nəfərə çatmış; işsiz kişilərin sayı isə 98,2 min nəfər və ya 48,5 faiz azalaraq



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

206,2 min nəfərdən 105,0 min nəfərə düşmüşdürsə; iqtisadiyyatda məşğul olan qadınların sayı 562,6 min nəfər və ya 31,5 faiz artaraq 1787,3 min nəfərdən 2349,9 min nəfərə qalxmış; işsiz qadınların sayı isə 48,9 min nəfər və ya 25,1 faiz azalaraq 194,7 min nəfərdən 145,8 min nəfərə düşmüşdür. Kişilər arasında işsizlik səviyyəsi 5,4 faiz azalaraq 2003-cü ildəki 9,5 faizdən 2018-ci ildə 4,1 faizə; qadınlar arasındakı işsizlik səviyyəsi isə 5,1 faiz bənd azalaraq 10,9 faizdən 5,8 faizə düşmüşdür (5, s.85). Bu statistik rəqəmlərdən göründüyü kimi, müqayisə edilən dövrdə ölkə iqtisadiyyatında məşğul olan kişilərin sayı qadınlarla müqayisədə daha çox artdığı halda işsiz kişilərin sayı işsiz qadınlara nisbətən daha çox azalmışdır. Bu səbəbdən də hazırda respublikamızda mövcud olan işsizlər arasında qadınların həm mütləq və həm də nisbi sayı kişilərə nisbətən xeyli çoxdur. 2018-ci ilin rəsmi statistik məlumatlarına əsasən respublikamızda qeydə alınmış (253, 8 min nəfər) işsiz əhalinin 57,4 faizini qadınlar (145, 8 min nəfər); 42,6 faizini isə (108,0 min nəfər) kişilər təşkil etmişlər. Qeyd edilən dövrdə ölkəmizin məşğulluq xidməti orqanlarında işsiz statusa alanların sayının və onların arasında qadın və kişilərin xüsusi çəkisinin dəyişilməsi vəziyyətini isə aşağıdakı rəqəmlərdən görmək olar. Belə ki, 2003-2018-ci illərdə respublikanın məşğulluq xidməti orqanlarında rəsmi qaydada işsizlik statusu alanların sayı 34,3 min nəfər və ya 2,7 dəfə azalaraq 54,4 min nəfərdən 20,0 min nəfərə, o cümlədən kişilərin sayı 12,7 min nəfər və ya 2,0 dəfə azalaraq 25,3 min nəfərdən 12,6 min nəfərə, qadınların sayı isə 3,9 dəfə azalaraq 29,1 min nəfərdən 7,5 min nəfərə düşmüşdür. Bütün bu qeyd olunanlar onu deməyə əsas verir ki, qadınlar arasında işsizlik səviyyəsinin azaldılması problemi kişilərlə müqayisədə daha kəskin xarakter daşıyır və bu sahədə daha ciddi tədbirlər görülməsini tələb edir. Ədalət naminə onu da demək lazımdır ki, müstəqillik illərində, xüsusilə də ölkə iqtisadiyyatının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçdiyi 2003-cü ildən sonrakı dövrdə respublikamızda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizlik səviyyəsinin azaldılması işində başqa mühüm dövlət sənədləri ilə yanaşı 2001-ci il iyunun 2-də qəbul olunmuş "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu və bu Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli fərmanının, habelə prezident İlham Əliyevin "26" oktyabr 2005-ci ildə imzaladığı "Azərbaycan Respublikasının məşğulluq strategiyasının (2006-2015-ci illər)" və "15" may 2007-ci ildə imzaladığı "Azərbaycan Respublikasının məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramının (2007-2010-cu illər)" təsdiq edilməsi haqqındakı fərmanlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi də az rol oynamamışdır. Respublika prezidenti İlham Əliyev cənablarının "29" iyun 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq haqqında" Azərbaycan Respublikasının yeni qanununda; "30" oktyabr 2018-ci il tarixli sərəncamı ilə tədqiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası"nda və "29" yanvar 2019-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nda da məşğulluq və işsizlik problemlərinin həllinə dair çox ciddi vəzifələr və tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

**Ölkə əhalisinin işsizlik səviyyəsinin azaldılmasına təsir edən amillərin təhlili və qiymətləndirilməsi**

Müqayisə edilən dövrdə ölkə iqtisadiyyatında məşğulluğun artmasına və işsizliyin azalmasına bir çox amillər təsir etmişdir. Bunlara ölkə ərazisində kiçik və orta sahibkarlığın inkişafı, iqtisadiyyatda baş vermiş struktur dəyişikliklər, tikinti, nəqliyyat və rabitə şəbəkələrinin genişləndirilməsi, yeni sənaye müəssisələrinin yaradılması, idman komplekslərinin, səhiyyə ocaqlarının, təhsil müəssisələrinin sayının artırılması, neft-qaz kəmərlərinin çəkilməsi, əhalinin təhsil səviyyəsinin və peşə-ixtisas dərəcəsinin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yüksəldilməsi və sair daxildir. Təkcə bunu demək kifayətdir ki, 1995-2018-ci illərdə ölkəmizdə fəaliyyət göstərən kiçik müəssisələrin sayı 3,2 dəfə artaraq 7,2 mindən 22,7 minə, xarici və müştərək müəssisələrin sayı isə 6,0 dəfədən çox artaraq 293-dən 1765-ə; həmin müəssisələrdə işləyənlərin sayı isə müvafiq surətdə 2,2 dəfə artaraq 59,4 min nəfərdən 133,1 min nəfərə və 11,9 dəfə artaraq 7,0 min nəfərdən 83,3 min nəfərə çatmışdır (4, s.108, 112). Dünya təcrübəsi göstərir ki, ölkədə işsizliyin və cəmiyyətdə mövcud olan gərginliklərin azaldılmasında mühüm rol oynaya bilən çevik məşğulluq formalarının inkişafı sahəsində kiçik müəssisələr böyük potensial imkanlara malikdir. Bu imkanlardan səmərəli istifadə edilməsi üçün ölkəmizdə hər cür şərait vardır. Kiçik və orta müəssisələr həm də çox böyük rəqabət üstünlüklərinə malikdir. Bu müəssisələr həmin mövcud əmək və intellektual potensialdan daha dolğun və səmərəli istifadə etmək imkanlarına malikdirlər. Buna görə də bazar iqtisadiyyatlı ölkələrdə dövlət əsas diqqətini kiçik və orta sahibkarlığın inkişafına və müdafiəsinə yönəldir. Buna görə də ölkəmizdə həmin müəssisələrin inkişafına və düzgün yerləşdirilməsinə xüsusi diqqət yetirilməlidir. Bu bir tərəfdən ölkənin müxtəlif ərazilərində mövcud olan əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin iş yerləri ilə təmin edilməsinə və onların əməyindən səmərəli istifadə olunmasına, digər tərəfdən isə əhalinin həyat səviyyəsi və keyfiyyətinin yüksəldilməsinə geniş imkanlar yarada bilər. Ancaq hazırda ölkəmizdə həmin bazar iqtisadiyyatı strukturlarında məşğul olanların sayı cəmi 214,6 min nəfər təşkil edir və onlar ölkə iqtisadiyyatında məşğul olanların (4879,3 min nəfərdir) vur-tut cəmi 4,8 faizindən bir qədər çoxunu təşkil edir. Hal-hazırda ölkəmizdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan kiçik müəssisələrin sayı 22,7 min, onlarda çalışanların sayı 133,1 min nəfər; xarici və birgə müəssisələrin sayı isə 1765, onlarda çalışanların sayı isə 83,2 min nəfərdir. Onların isə əhəmiyyətli bir qismi Bakı şəhərində və Abşeron iqtisadi rayonunda cəmləşmişdir. Ona görə də yaxın gələcəkdə bu sahədə lazımi tədbir işlənib hazırlanması və həyata keçirilməsinə ciddi zərurət vardır. Təsadüfi deyildir ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi Dövlət Proqramı"nda qarşıda qoyulmuş mühüm vəzifələrindən biri: "Sahibkarlığın, o cümlədən KOB-ların inkişafının sürətləndirilməsi, onların maliyyə dayanıqlığının möhkəmləndirilməsi; KOB-ların inkişafı sahəsində dövlət qurumları tərəfindən sahibkarlara vahid məkanda daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə xidmətlərin (o cümlədən, zəruri səyyar xidmətlərin) göstərilməsinin təmin edilməsi"ndən ibarətdir (2).

Ölkə ərazisində sahibkarlığın inkişaf etdirilməsi və əsas kapitala investisiya qoyuluşları həyata keçirilərkən ayrı-ayrı regionların sosial-iqtisadi inkişaf səviyyəsi, istehsalın strukturu və mövcud iş qüvvəsi potensialı da nəzərə alınmalıdır. Bu sahədə elə iqtisadi siyasət tədbirləri işlənib hazırlanmalı və həyata keçirilməlidir ki, gələcəkdə ölkəmizin bütün ərazilərində əhalinin səmərəli məşğulluğunun təmin edilməsi və işsizlik səviyyəsinin azaldılmasına, bu ərazilərin sosial-iqtisadi və demoqrafik inkişafı sahəsində müəyyən tarazlıq yaradılmasına nail olmaq olsun. Ancaq son illərdə ölkə ərazisində istehsalın şaxələndirilməsi və struktur dəyişikliklərin həyata keçirilməsinə baxmayaraq hələ də əsas kapitala investisiya qoyuluşunun əksəriyyəti Bakı-Abşeron iqtisadi rayonunun payına düşür. Məsələn, 2018-ci ildə respublikada əsas kapitala yönəldilmiş 17244,9 milyon manatlıq vəsaitin 10723,8 milyon manatı və ya 62,2 faizi Bakı şəhərinin payına düşmüşdür (4). Fikrimizcə, bu sahədə vəziyyətin düzəldilməsi investisiyaların ilk növbədə mütərəqqi texnika və texnologiya əsasında ixrac yönümlü və idxalı əvəzləyən edən məhsul istehsal edən mövcud müəssisələrin modernləşdirilməsi və yeniliklərinin yaradılmasına; ixrac olunan xammalın və aralıq məhsulların emal dərinliyinin artırılmasına imkan verən emal müəssisələrinin modernləşdirilməsi və yenilərinin yaradılmasına; infrastruktur sahələrinin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dünya standartları əsasında modernləşdirilməsi və inkişafına yönəldilməsinin stimullaşdırılmasına istiqamətləndirilməlidir (3, s.253-254.).

Məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizlik səviyyəsinin azaldılmasının mühüm və başlıca amillərindən biri də əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin təhsil səviyyəsi və peşə-ixtisas dairəsindən ibarətdir. 2018-ci ilin rəsmi statistik məlumatlarına əsasən respublika iqtisadiyyatında məşğul olan əhalinin 16,7 faizinin, o cümlədən kişilərin 19,2; qadınların 14,0 faizinin ali; müvafiq surətdə 11,0; 8,4 və 13,8 faizinin orta ixtisas cəmi 5,5; 7,5 və 3,3 faizinin isə peşə təhsili vardır. Ali təhsili olanların 40,0 faizi; orta ixtisas təhsili olanların 60,4; peşə təhsili olanların isə 28,9 faizini qadınlar təşkil edirlər (4). Bu göstəriciləri işsiz əhali üzrə nəzərdən keçirdikdə isə məlum olur ki, qeyd edilən dövrdə respublikamızda mövcud olmuş 253,8 min nəfər işsiz əhalinin 12,1 faizini, o cümlədən 108,0 min nəfər işsiz kişinin 17,4 faizini, 145,8 min nəfər işsiz qadınların isə 11,0 faizini ali təhsili olanlar; müvafiq surətdə 12,1; 13,1 və 11,4 faizini orta ixtisas təhsili; 7,4; 6,6 və 8,0 faizini isə peşə təhsili olanlar təşkil etmişlər. İşsiz əhalinin 57,4 faizi, o cümlədən ali təhsili olanların 46,0; orta ixtisas təhsili olanların 53,9; peşə təhsili olanların isə 62,0 faizi qadınların payına düşmüşdür. İşsiz əhalimizin 66,8 faizini, o cümlədən işsiz kişilərin 62,9; işsiz qadınların isə 69,7 faizini heç bir xüsusi təhsili və peşəsi olmayanlar təşkil etmişdir. Bu vəziyyət onların ixtisaslı iş yerləri ilə təmin edilməsini və ümumiyyətlə ictimai faydalı əməyə cəlb edilməsini olduqca çətinləşdirir. Buna görə də həmin qəbildən olan gənc oğlan və qızların peşə təhsili məktəblərinə, ali və orta ixtisas məktəblərinə qəbul edilməsi üçün hərtərəfli şərait yaradılmasını və kompleks tədbirlər görülməsini tələb edir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 2010-2018-ci illərdə ölkəmizin peşə təhsili müəssisələrində təhsil alanların sayı 13,3 faiz azalaraq 197,3 min nəfərdən 171,1 min nəfərə; orta ixtisas təhsili müəssisələrin təhsil alanların sayı isə 2,8 faiz azalaraq 53,5 min nəfərdən 51,8 min nəfərə düşmüşdür. Əlbəttə, doğrudur eyni zamanda ali məktəblərimizdə təhsil alan tələbə və doktorantların sayı da həmin dövrdə 26,0 faiz artaraq 146,2 min nəfərdən 184,2 min nəfərə yüksəlmişdir (4). Həm də bu illər ərzində tam orta təhsil məktəblərini bitirənlərin sayı isə 15,6 faiz azalaraq 98,6 min nəfərdən 83,2 min nəfərə düşməsinə baxmayaraq onların peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələr ilə əhatə olunması, səviyyəsi 35,8 faiz bənd yüksələrək 57,3 faizdən 93,1 faizə qalxmışdır. Daha doğrusu, əgər 2010-cu ildə respublikamızın tam orta məktəblərini 98,6 min nəfər bitirmişdirsə, peşə təhsili məktəblərinə, orta ixtisas və ali təhsil ocaqlarına qəbul olunanların sayı 56,5 min nəfər təşkil etmişdir (peşə məktəblərinə 15,7 min nəfər; orta ixtisas məktəblərinə 15,9 min nəfər, ali təhsil müəssisələrinə 29,9 min nəfər qəbul olunmuşdur). 2018-ci ildə isə respublikamızın tam orta təhsil müəssisələrini 83,2 min nəfər bitirmişdirsə, peşə təhsili məktəblərinə, orta ixtisas və ali təhsil məktəblərinə qəbul olunan tələbələrin sayı 77,5 min nəfər olmuşdur (peşə təhsili məktəblərinə 17,4 min nəfər, orta ixtisas məktəblərinə 18,0 min nəfər, ali təhsil məktəblərinə isə 42,1 min nəfər qəbul olunmuşdur).

Hazırda işsizlik sahəsində mövcud olan vəziyyəti daha düzgün müəyyənləşdirib qiymətləndirmək, müvafiq nəticələr çıxarmaq və lazımi təkliflər işləyib hazırlamaq üçün bütünlükdə işsizlərin, o cümlədən də məşğulluq xidməti orqanlarında işsiz statusu alanların yaş-cins tərkibinin və keyfiyyət xarakteristikasının öyrənilib aşkara çıxarılmasının mühüm əhəmiyyəti vardır. Azərbaycan Dövlət Statistika Komitəsinin 2018-ci ilə dair rəsmi məlumatlarına əsasən həmin ildə məşğulluq xidməti orqanlarında işsiz statusu anların orta hesabla 44,2 faizini kadr axını nəticəsində işdən azad olunanlar; 36,6 faizini struktur dəyişiklikləri ilə əlaqədar olaraq işini itirənlər, 1,7 faizini təhsil müəssisələrinin məzunları; 10,0 faizini əmək fəaliyyətində 1 ildən çox fasiləsi olanlar, 7,5 faizini isə digər səbəblərə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

görə işdən azad olanlar təşkil etmişlər. Bütün səbəblərdən işdən azad edilənlərin 37,2 faizini; o cümlədən kadr axını üzrə işdən azad edilənlərin 38,7; struktur dəyişikliyi üzrə işdən azad edilənlərin 57,6; təhsil müəssisələri məzunlarının 34,9; əmək fəaliyyətində 1 ildən çox fasiləsi olanların 56,6; digər səbəblərdən işdən azad edilənlərin isə 99,5 faizini qadınlar təşkil etmişlər (6, s.122). 2018-ci ildə Məşğulluq Xidməti Orqanlarında rəsmi işsizlik statusu verilmiş şəxslərin isə 53,6 faizini ali; 34,6 faizini orta ixtisas; 9,3 faizini peşə təhsili olanlar təşkil etmişdir. Ali təhsili olanlara işsizlik statusu verilənlərin 33,4; orta ixtisas təhsili olanlar işsiz statusu verilənlərin 55,1; peşə təhsili olanlar işsizlik statusu verilənlərin isə 68,9 faizini qadınlar təşkil etmişlər. Qeyd edilən dövrdə rəsmi işsizlik statusu verilmiş qadınların 8,4 faizini 20-24 yaşında olanlar; 31,3 faizini 25-29 yaşda; 24,8 faizini isə 30-34 yaşda olanlar təşkil etmişlər. Kişilər üzrə bu göstəricilər müvafiq surətdə 10,1; 36,1 və 22,9 faizə bərabər olmuşdur. İşsizlik statusu verilmiş 20-24 yaşda olanların 33,0; 25-29 yaşda olanların 34,0; 30-34 yaşda olanların isə 39,1 faizi qadınların; müvafiq surətdə 67,0; 66,0 və 60,9 faizi isə kişilərin payına düşmüşdür (6).

Bütün bunlar işsiz əhalinin münasib iş yerləri ilə təmin edilməsinin nə qədər mürəkkəb və çətin problem olduğunu ortaya qoyur. Ancaq bu çətinliklərə baxmayaraq həmin işsizlərin və müxtəlif səbəblərdən işdən azad edilənlərin müvafiq iş yerləri ilə təmin edilməsi mühüm vəzifə olaraq qarşıda durur və öz həllini gözləyir. Təsadüfi deyildir ki, “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası”-nda deyilir ki: “Strategiyanın məqsədi məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçidini təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, tam məşğulluğu təmin etmək, layiqli əməyi dəstəkləmək və əmək məhsuldarlığını yüksəltməkdir” (7). Bu məqsədə nail olmaq üçün ölkədə davamlı surətdə məşğulluq yönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi; əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi; iş qüvvəsinin bacarığının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi; aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəltməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının genişləndirilməsi; sosial dialoqun inkişaf etdirilməsi və qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması və əmək bazarının monitorinqinin və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi və sair tədbirlərin həyata keçirilməsi tələb olunur.

**Nəticə**

Bütün bu yuxarıda qeyd etdiklərimiz onu deməyə əsas verir ki, hazırda ölkəmizin müxtəlif ərazilərdə yeni iş yerləri yaradılarkən həmin ərazilərdə mövcud olan iqtisadi fəal əhalinin (bütün işləyənlərin və işsizlərin) və iqtisadi qeyri-fəal əhalinin (bunlara yuxarı sinif şagirdləri, tələbələr, ev təsərrüfatında məşğul olanlar, xəstəyə qulluq edənlər, işləməyə ehtiyacı olmayan şəxslər daxildir) kəmiyyət-keyfiyyət göstəriciləri, qadın və kişi əməyinin tətbiqi xüsusiyyətləri nəzərə alınmalıdır. “2019-2030-cu illər üçün Azərbaycan respublikasının Məşğulluq Strategiyası” ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizliyin azaldılması sahəsində qarşıda duran vəzifələri yerinə yetirmək məqsədinə nail olmaq üçün sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın, əhalinin özünü məşğulluğun inkişafı üçün zəruri şərait yaratmaq; məşğulluğun səmərəliliyini təmin edən investisiya fəaliyyətini dəstəkləmək; iş axtaran və işsiz vətəndaşların sosial müdafiəsini gücləndirmək, qeyri-formal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlər həyata keçirmək; əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş institusional infrastrukturu təkmilləşdirmək; kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkəsinin fəaliyyətini dinamik



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırmağı tələb edir. Bu vəzifələrin yerinə yetirilməsi ölkədə mövcud olan əmək potensialının keyfiyyətcə yaxşılaşdırılmasına; onun rəqabət gücünün artırılması və iqtisadi fəallığının yüksəldilməsinə əlverişli şərait yaradılmasına; kadr hazırlığı və ixtisasartırma şəbəkəsinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılmasına və beləliklə də regionlar üzrə əmək bazarının inkişafına yönəldilmiş institusional mühitin formalaşmasına; işsizlik səviyyəsinin azaldılmasına; iş axtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə səbəb olacaqdır.

**Ədəbiyyat**


1. Ramiz Mehtiyev "Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdırann Lider". "Azərbaycan" qəzeti,. "11" dekabr 2019-cu il.
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı. Bakı, 2019.
3. Rövşən Muradov. Əmək potensialı: formalaşması və istifadəsi problemləri. Bakı, "Avrora" 2019.
4. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı. 2019.
5. "Əmək bazarı" statistik məcmuə. Bakı, 2019.
6. Azərbaycanda qadınlar və kişilər. Statistik məcmuə. Bakı, 2019.
7. Xalq" qəzeti. 21 oktyabr 2018-ci il.)




***Фарах Шахбаз кызы Джафарова***

***Стратегия занятости и основные направления сокращения уровень безработицы населения***

*В статье автор, на основе анализа конкретных статистических данных за последние 15 лет (2003-2018 годы), определяет основные изменения в уровне безработицы в Азербайджанской Республике и выдвигает предложения по основным направлениям его сокращения.*

***Ключевые слова:*** *население, занятость, безработица, государственное и негосударственное подразделение, экономически активное и экономически неактивное население, стратегия занятости.*

***Farax Shabaz Dzhafarova***

***Unemployment rate of the economically active population in Azerbaijan and main directions of its reduction***

*The author, based on the analysis of specific statistical data for the last 15 years (2003-2018) identifies the main changes in the level of unemployment in the Republic of Azerbaijan and put forward proposals on the main directions of its reduction.*

***Keywords:*** *population, employment, unemployment, state and non-state division, economically active and economically inactive population, employment strategy.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 14.01.2020.***
***Çapa qəbul olunub: 17.01.2020.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*